Təsisçi: Azərbaycan Tibb Universiteti

# Təbib

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 04 (1709) 29 fevral 2020 - ci il Qiyməti 50 qəpik

# Prezident İlham Əliyev Xocalı soyqırımı qurbanlarının xatirəsini anma mərasimində iştirak edib

**1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu faciədən 28 il ötür. Həmin kütləvi qırğın nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla 613 nəfər amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, 155 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 132 uşaq isə valideynlərindən birini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı soyqırımı qurbanlarının xatirəsini anırlar.**

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar anım mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva anım mərasimində iştirak etdilər.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Birinci xanım Mehriban Əliyeva, dövlət və hökumət nümayəndələri, ölkəmizdəki dini konfessiyaların rəhbərləri abidənin önünə gül dəstələri qoydular.



## BU SAYIMIZDA



2

## BÖYÜK ELMİ ŞURADA

## Azərbaycan Tibb Universitetində Xocalı soyqırımının 28-ci ildönümü qeyd olunub




3



## ATU daha bir əməkdaşlığa imza atdı

4

## "Sabahın alimləri" IX Respublika müsabiqəsinin qalibləri mükafatlandırılıb

4



BÖYÜK ELMİ ŞURADA

# Payız semestrinin imtahan sessiyasının yekunları müzakirə olunub

**Fevralın 25-də Böyük Elmi Şuranın növbəti iclasını açan ATU-nun rektoru, professor Gəray Gəraybəyli öncə Biofiziki və bioüzvi kimya kafedrasının müdiri, akademik Dilqəm Tağıyevi yubiley yaşı münasibətilə təbrik edib. Bundan sonra gündəlikdə duran məsələləri diqqətə çatdıraraq "Azərbaycan Tibb Universitetində 2019/2020-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının yekunları və yaz semestrində tədris prosesinin daha da yaxşılaşdırılması işində universitet kollektivinin vəzifələri" mövzusunda hesabat məruzəsi ilə çıxış etmək üçün sözü tədris və müalicə işləri üzrə prorektor, professor Sabir Əliyevə verib.**

tədrisin təşkili, onun müasir tədris-metodik vəsaitlərlə təmini, dərslərin tədris plan və proqramlarına uyğun aparılması dekanlıqların və tədris hissəsinin cari işinin əsasını təşkil etmişdir.

Tədris prosesində tətbiq olunan yenilikləri də şərh edən məruzəçinin sözlərinə görə, universitetin rektoru, professor G.Gəraybəyli ilə görüş zamanı tələbələr keçən tədris ilindən başlayaraq I və II kurslarda kompyuter vasitəsilə aralıq sorğunun aparılmasından razı qaldıqlarını bildiriblər. Çünki kompyuterlərlə aparılan imtahanlar obyektivliyi, şəffaflığı, ədalətli olması, tələbələr üçün bərabər şəraitin yaradılması, subyektiv təsirlərin aradan qaldırılması, ictimai rəyin müsbət istiqamətdə dəyişməsi üzrə ən çox müraciət (292 nəfər) II kurs tələbələrindən, ən az müraciət isə (91 nəfər) VI kurs tələbələrindən olmuşdur.

Xarici ölkələrdən universitetimizdə təhsil almaq üçün müraciət edən tələbələrin sayının ildən-ilə artdığını vurğulayan S.Əliyev 2019/2020-ci tədris ilinin əvvəlində ATU-da 31 ölkədən 1739 nəfər tələbənin, o cümlədən 2 nəfər İordaniya vətəndaşının dövlət xətti ilə, 104 nəfərin Türkiyə Cümhuriyyətindən YÖK yolu ilə, 4 tələbənin isə İƏT yolu ilə təhsil aldığını diqqətə çatdırıb.

Çıxışının sonunda əczaçılıq fakültəsi istisna olmaqla, bütün ixtisaslar üzrə Dövlət Attestasiya sınaqlarının kredit sistemi ilə








Cəmiyyətin müasir inkişaf səviyyəsinə adekvat olan yüksək ixtisaslı, peşəkar, rəqabət qabiliyyətli kadrların hazırlanması-nı ali təhsilin qarşısında duran ən mühüm vəzifələrdən biri kimi səciyyələndirən prorektor son illərdə müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, istedadlı insanların müəllim peşəsinə cəlb edilməsi istiqamətində ciddi addımlar atıldığını söyləyib.

Ümummilli lider Heydər Əliyevin "təhsil millətin gələcəyidir" və ölkə başçısı cənab İlham Əliyevin "...təhsil sahəsi daim islahat tələb edən sahədir" tezislərini xatırladan məruzəçi keçid dövrünü yaşayan ölkələrdəki təhsil problemlərinin inkişaf etmiş ölkələrdəki təhsil problemlərindən tam fərqləndiyini də deyib: "Bunun bir çox səbəbi var. Əsas səbəb bu ölkələrdəki insan kapitalının zəifliyi və təhsilə qoyulan investisiyaların az olmasıdır. Əslində ən böyük investisiya imkanı təhsil sistemindədir. Bu sektora qoyulan hər bir dollar on qat geri qayıdır".

S.Əliyev bildirib ki, məhz bu nöqteyi-nəzərdən 2019/2020-ci tədris ilinin payız semestrində istər universitet rəhbərliyi, tədris hissəsi, istərsə də dekanlıqlar və kafedraların əsas məqsədi il boyu tədrisin və tədris-metodik işin keyfiyyətini yaxşılaşdırmaq, nəinki ölkəmizdə, hətta dünyanın inkişaf etmiş ölkələrində belə rezidentura və magistraturada təhsilini davam etdirə biləcək, praktik sahədə fəaliyyət göstərəcək gənc həkim, hərbi həkim, əczaçı və hərbi feldşer kadrları hazırlamaqdır.

Universitetimizdə Ali təhsilli tibb bacısı, Fizioterapiya və tibbi reabilitasiya ixtisaslarının yaradıldığını, həmin ixtisasların Nazirlər Kabinetinin müvafiq qərarı ilə IV qrup üzrə siyahıya əlavə edildiyini şura üzvlərinin diqqətinə çatdıran prorektor qeyd edib ki, həmçinin, iki magistratura ixtisası üzrə də qəbul planlaşdırılır: "Bakalavr səviyyəsi üzrə olan Ali təhsilli tibb bacısı, Fizioterapiya və tibbi reabilitasiya ixtisaslarının hər birinə 30 nəfər, magistratura səviyyəsi üzrə olan ixtisaslara isə 15 nəfər olmaqla 2020/2021-ci tədris ilindən qəbul aparılacaqdır".

O da vurğulanıb ki, hesabat dövründə universitetin ayrı-ayrı kafedralarında ilə fərqlənir. Amma bütün üstünlüklərinə baxmayaraq, test üsulunun yenidən təkmilləşdirilməsinə böyük ehtiyac duyulur.

Hesabat məruzəsində imtahan sessiyasının nəticələri də öz əksini tapıb. 5916 nəfər tələbənin sessiyanı müvəffəqiyyətlə başa vurduğu bildirilib: "Onlardan 1097 nəfər (17,4%) sessiyanı "əla" qiymətlərlə, 2748 nəfər (43,7%) "əla" və "yaxşı" qiymətlərlə, 2071 nəfər (33,1%) qiymətlərlə bitirib. Sessiyanın nəticələrinə görə 362 nəfər (0,1%) tələbənin akademik borcu (F) qalıb. Onlardan 275 nəfərin yalnız 1 fəndən, 68 nəfərin 2 fəndən, 19 nəfərin isə 3 fəndən akademik borcu qalmışdır.

Universitet üzrə mütləq mənimsəmə göstəricisi 94,1% (keçən il 91,4%), keyfiyyət göstəricisi 61,2% (keçən il 54,1) olub.

Kurslar üzrə ümumi rəqəmlərə fikir versək, qeyd etmək lazımdır ki, ilkin mənimsəmə və keyfiyyət göstəricisi V və VI kurslarda daha yaxşıdır".

S.Əliyev cari tədris ilinin payız semestrinin imtahan sessiyasının nəticələrinin ilkin araşdırılması zamanı xüsusi diqqət çəkən məqamlara da toxunub: "I-II kursda tədris aparan kafedralar üzrə tələbələrin semestrboyu topladığı ballar adətən 40-dan az, III-VI kurslarda isə 40-dan çox olur. Yəqin bunun nəticəsidir ki, yuxarı kursda təhsil alan tələbələrin böyük əksəriyyəti sessiyanı əla qiymətlərlə başa vurur. Digər tərəfdən, aşağı kurslarda tərtib olunmuş testlər həm miqdarca çoxdur, həm də tərtibatca əhatəlidir. Yuxarı kurslarda isə testlər miqdarca az və adətən sadədir".

Dövlət İmtahan Mərkəzi tərəfindən aparılan imtahanlar zamanı IV qrup üzrə yüksək bal toplayanların böyük əksəriyyətinin bizim universiteti seçməsini ölkə universitetləri arasında reytinqimizin göstəricisi kimi qiymətləndirən prorektor təəssüflə qeyd edib ki, həmin tələbələrin universitetdə təhsil aldıqları müddətdə əldə etdikləri nəticələr heç də qaneedici olmur. Belə ki, 6 il ərzində universitetə daxil olan 149 nəfər Prezident təqaüdçüsündən indiyədək yalnız 36 nəfəri bu statusda qala bilmişdir.

Apellyasiya Komissiyasının fəaliyyətinə də toxunan prorektorun sözlərinə görə, kurslar aparılacağını deyən prorektor universitet kollektivinin yeni semestrdə də gənc nəslin tərbiyəsində və təhsilində əlindən gələni etməyə çalışacağına əminliyini ifadə edib.

Məruzə ətrafında çıxış edən Apellyasiya Komissiyasının sədri, professor Surxay Musayev 28 dekabr 2019-cu il tarixindən 05 fevral 2020-ci ilədək kurs imtahanlarından, 05 fevral 2020-ci ildən 10 fevral 2020-ci ilədək isə kəsr imtahanlarından şikayətləri olan, müxtəlif səbəblərdən imtahanlarda iştirak etməmiş tələbələrin müraciətlərinin araşdırıldığını deyib. Bildirib ki, 150 fəndən 1950 test sualının yenidən araşdırılması üçün ərizə ilə müraciət edən 1342 tələbənin 1315-i araşdırmalarda iştirak etmiş, 8 nəfər müxtəlif səbəblərdən araşdırmalara gəlməmişdir. Beləliklə, apellyasiya araşdırması nəticəsində 617 müraciətə (46.9 %) baxılarkən testlərdə müxtəlif xarakterli qüsurlar aşkarlanmış və doğru cavablara görə tələbələrin iddiaları əsaslı hesab olunmuşdur. 698 (53,0 %) tələbənin müraciəti isə test suallarına düzgün cavab vermədikləri üçün əsassız sayılmışdır. Apellyasiyanın nəticələrini fakültələr və kurslar üzrə müqayisəli təhlil edən komissiya sədri araşdırmalar zamanı ekspertlərin öz işlərinə məsuliyyətlə yanaşdıqlarını da diqqətə çatdırıb.

II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli, İmtahan Mərkəzinin müdiri Ülkər Cəfərova və tələbə-dekan Etibar Abbasov da çıxışlarında imtahanların formatında edilən müsbət dəyişikliklərə, testlərin tərtibinə və sualların keyfiyyətinə, istinad olunan ədəbiyyatlara, imtahana giriş ballarına, aralıq qiymətləndirməyə dair fikirlərini şura üzvləri ilə bölüşüblər.

Müzakirələri yekunlaşdıran rektor hal-hazırda tədris prosesinin vacib bir hissəsi hesab edilən imtahanın gələcəkdə texniki bir məsələyə çevrilə biləcəyini və bu istiqamətdə müəyyən işlərin getdiyini vurğulayıb. Yeniləşən dünyada bəzi müəllimlərin öz fəaliyyətlərini hələ də tələbədən nəyisə soruşmaqda gördüyünü təəssüflə qeyd edən rektor bildirib ki, müasir tədris texnologiyalarının yaranması ilə əlaqədar müəllimin soruşmaq funksiyası getdikcə azalır: "Bu baxımdan islahatları sürətləndirmək lazımdır. İmtahanlara bağlı problemlərin həlli testlərin keyfiyyətindən, ekspertlərin işindən və kafedraların bu məsələlərə necə yanaşmasından çox asılıdır. Ekspertlərin fəaliyyətində müəyyən dinamika müşahidə olunsa da, bəzən onların düzgün seçilməməsi mənfi nəticələrə gətirib çıxarır. Bir daha demək istəyirəm ki, bu məsələlərdə əsas məsuliyyət kafedra müdirlərinin üzərinə düşür".

Hər bir testin hazırlanmasına görə də ilk növbədə kafedra müdirlərinin cavabdehlik daşıdığını xatırladan universitetin rəhbəri dərs və imtahan yükünün ədalətli bölgüsünə dair tövsiyələrini də verib.

Bir neçə kafedranın İmtahan Mərkəzinə nəzarətçi qismində rezidentləri göndərməsini kəskinliklə qınayan professor G.Gəraybəyli tələbələrin akademik auditoriya yükünün və müəllimlərin iş saatlarının mövcud əsasnaməyə uyğun müəyyənləşdirilməsinin vacibliyini önə çəkib.

Yekun nitqində universitetimizin inkişafında maddi-texniki bazanın xüsusi roluna, xarici vətəndaşları cəlb etmək baxımından reytinqinə, elektronlaşmanın sürətləndirilməsinə və gənc kadrların yetişməsi istiqamətində atılan addımlara toxunan rektor elmi işlərin təsdiqi və aparılması ilə, qısa zamanda qəbul olunacaq yeni standartlarla bağlı fikirlərini də açıqlayıb.

III Daxili xəstəliklər kafedrasının dosenti Nağdəli Zamanovun "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" adlı monoqrafiyasının Dövlət Mükafatları Komissiyasına təqdim olunmasına razılıq verən elmi şura elmlər doktoru işinin mövzusunu və elmi məsləhətçisini, II Müalicə-profilaktika fakültəsinin bəzi tələbələrinin Prezident təqaüdünün bərpa olunması barədə vəsatətini, tələbə dekanı haqqında əsasnaməni, "Qonaq professor" statusunda dəyişikliyi və "Qonaq mühazirəçi" adının təsis edilməsini təsdiqləyərək dərslik, dərs vəsaitləri, metodik vəsaitlərin nəşri və müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırıb.

**Arif MƏMMƏDLİ**

# Xocalı soyqırımından 28 il ötür

## Azərbaycan Tibb Universitetində Xocalı soyqırımının 28-ci ildönümü qeyd olunub

**◆ Bəşəriyyətə qarşı ən ağır cinayətlərdən biri sayılan Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar Azərbaycan Tibb Universitetində anım tədbiri baş tutub.**





Tədbirdə giriş sözü ilə çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli Xocalı soyqırımını XX əsrin və Azərbaycan xalqının tarixindəki ən böyük faciə, misli görünməmiş cinayət kimi qiymətləndirib: "XX əsrin sonları Azərbaycan xalqının tarixində biri-birindən ağır olaylar, sınaqlarla dolu günlərlə yadda qalıb. Həmin dövrdə müstəqillik uğrunda mübarizəyə qalxan xalqımız 20 Yanvar və Xocalı faciələrini yaşamalı oldu. Bu hadisələrə dərindən nəzər yetirdikdə, onların eyni ssenari əsasında həyata keçirildiyini demək olar. Dinc əhaliyə, əliyalın insanlara, uşaqlara, yaşlılara qarşı ağır silahlardan istifadə olunması, dünyada misli görünməmiş vəhşiliklərin törədilməsi, onlara sözün əsl mənasında divan tutulmasından belə nəticə çıxarmaq olar ki, bu hadisələrin məqsədi Azərbaycan xalqının iradəsini və azadlıq meyllərini sındırmaq idi".

Xocalı soyqırımının bütün dünyada tanıdılması, hadisəyə hüquqi qiymət verilməsi üçün Azərbaycan dövlətinin zəruri tədbirlər gördüyünü bildirən rektor qeyd edib ki, soyqırımı törədənlərin cəzalandırılacağı gün yaxındadır.

ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasının professoru, əslən Xocalı sakini olan Mübariz Allahverdiyev soyqırım zamanı ailəsinin başına gələn müsubətlərdən danışıb. O, əliyalın insanların göstərdiyi şücaətlərdən söz açaraq bildirib ki, Xocalının vətənpərvər, qürurlu, yenilməz, əyilməz igid, qəhrəman övladları haqqında hələ indiyədək yazılmamış çox məqamlar var.

Xocalı hadisəsinin digər şahidi - ATU-nun Mikrobiologiya və immunologiya kafedrasının dosenti Səidə Zeynalova da həmin gecə baş verən o dəhşətli faciədən söhbət açıb. O, Xocalı soyqırımının miqyasına görə bəşər tarixində ən ağır etnik təmizləmə aktı olduğunu vurğulayıb.

Universitetin I müalicə-profilaktika fakültəsinin III kurs tələbəsi Aysun Məmmədli isə Xocalı faciəsinin tanıdılması, soyqırım qurbanlarının hüquqlarının müdafiəsi üçün gənclərin görə biləcəyi işlərdən bəhs edib.

Toplantıda ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsi tərəfindən hazırlanmış Xocalı soyqırımına həsr edilmiş sənədli film nümayiş etdirilib.

## QURTARIN VƏTƏNİ, DARDA QOYMAYIN

**(Qəhrəman Azərbaycan əsgərinə)**

Bu gün namus günü, mürvət günüdü,
Qalxın, igidlərim, qeyrət günüdü.
Ölüm-dirim günü, cürət günüdü,
Şəhidlər qanını yerdə qoymayın!
Qurtarın Vətəni, darda qoymayın!

Qarabağ üstündə qara yel əsir,
Düşmən gözlər ovur, düşmən baş kəsir!
Şahin ovlağında yarasa gəzir,
Şahinin qisasını sarda qoymayın!
Qurtarın Vətəni, darda qoymayın!

Duyantək yağının namərd işini,
Döşəyin yan-yana, qoyun leşini.
Qaniçən cəlladın çəkin dişini,
İzini qazıyın, yurda qoymayın!
Qurtarın Vətəni, darda qoymayın!

Hanı Zəngibasar, hanı Sürməli?
Bizimdi Zəngəzur, bizimdi, bəli!
Hay verin, qıy çəkin, keçin irəli,
Amandı, Göyçəni torda qoymayın!
Qurtarın Vətəni, darda qoymayın!

Yaman bürüyübdü bürkü cahanı,
Veribdi güdaza mürgü cahanı.
Vedini, Şuşanı, Kərkicahanı
Alovda, atəşdə, qorda qoymayın!
Qurtarın Vətəni, darda qoymayın!

Arxa olun, candan sevin qardaşı,
Qoy yandırsın qəlbinizdə qor daşı.
Bir yovşan çöpünü, bir qara daşı,
Acgöz yalquzağa, qurda qoymayın!
Qurtarın Vətəni, darda qoymayın!

Qoruyun, igidlər, hara Vətəndi!
Sinədə sızlayan yara Vətəndi!
Bura Azərbaycan, bura Vətəndi!
Çıxarın düşməni, burda qoymayın!
Qurtarın Vətəni, darda qoymayın!

**Eldar İSMAYIL**

## Əsaslı Kitabxanada Xocalı soyqırımı anılıb





Tədbir iştirakçıları ilk öncə Xocalı şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Sonra Əsaslı Kitabxananın direktoru, tarix ü.f.d Ziyafət Eminova ermənilərin zaman-zaman torpaqlarımız hesabına özlərinə erməni dövləti yaratdıqlarını, o cümlədən tarixin müxtəlif dönəmlərində xalqımıza qarşı ağır soyqırımlar etdiyini bildirib və onların törətdiyi Xocalı qətliamını isə XX əsrin ən böyük faciəsi adlandırıb. O, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni terror dəstələrinin və keçmiş sovet ordusunun Dağlıq Qarabağda yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı sakini olan 613 nəfər dinc azərbaycanlının, o cümlədən 63 uşaq, 106 qadının öldürüldüyünü, 8 ailənin bütünlüklə məhv edildiyini xatırladıb. Mərhum jurnalist Çingiz Mustafayevin həyatını təhlükəyə ataraq çəkdiyi kadrların bütün dünyaya yayılmasına, BMT kimi mötəbər bir təşkilatın 4 qətnamə qəbul etməsinə baxmayaraq, beynəlxalq ictimaiyyətin Ermənistana hələ də güclü təzyiq göstərmədiyini təəssüflə qeyd edib. Eyni zamanda Ulu Öndərin layiqli davamçısı, ölkə başçısı İlham Əliyevin rəhbərliyi altında zəruri addımların atıldığını, cinəyətkarların öz layiqli cəzasını alacağını, Azərbaycan xalqının bu ümidlə yaşadığını bildirib.

İctimai fənlər kafedrasının professoru Fəxrəddin Məmmədov və həmin kafedranın dosenti Yavər Vəliyev Xocalı soyqırımının insanlığa sığmayan əsl səbəbləri, acı nəticələri və beynəlxalq aləmdə tanınması üçün Azərbaycan rəhbərliyi və xalqının gördüyü işlərdən danışıblar. Natiqlər vurğulayıblar ki, bu faciənin unudulmaması və tarixi həqiqətlərin gənc nəsillərə çatdırılması üçün erməni vandalizminin mahiyyətinin nədən ibarət olduğunu bütün dünyaya tanıtdırmaq hər kəsin vətəndaşlıq borcudur və hər birimiz üzərimizə düşən bu missiyanı layiqincə yerinə yetirməliyik.

Bundan başqa, Əsaslı Kitabxananın əməkdaşı Gülnarə Qarayeva Xocalı soyqırımına həsr etdiyi şeirini də toplantı iştirakçılarının nəzərinə çatdırıb.

Sonda tədbir iştirakçıları Azərbaycan Rəssamlar İttifaqının üzvü, əslən Qubadlıdan olan tanınmış rəssam Şirin Cəfərovun Əsaslı kitabxananın foyesində təşkil etdiyi sərgi ilə tanış olublar. Sərgidə rəssamın əsasən karikatura janrında ərsəyə gətirdiyi bir sıra rəsm əsərləri nümayiş olunub. 40-a yaxın əsərin yer aldığı sərgidə müəllif ermənilərin tipik obrazını yaradıb və hiyləgər düşmənin güclülər önündə qorxaqlığını, gücsüzlər qarşısında isə qəddarlığını rəsm əsərlərinin dili ilə açıb tamaşaçıya göstərir. Onların əsl simasına və xarakterinə yaxından bələd olan istedadlı rəssam erməninin heç bir millətə xas olmayan ikiüzlü, riyakar, azğın, vəhşi və zalım xislətini bu əsərlərin vasitəsilə dünya ictimaiyyətinə çatdırır.

Onu da qeyd edək ki, tanınmış Azərbaycan rəssamı Şirin Cəfərovun bu silsilədən olan əsərləri indiyədək dünyanın bir çox ölkələrində nümayiş olunub.

**"TƏBİB"**

**Qidalanma və kommunal gigiyena kafedrasında** İctimai səhiyyə fakültəsinin V kurs tələbələri üçün "Ərzaq məhsullarının təhlükəsizliyi və istehsalı gigiyenası" fənnindən mühazirənin əvvəlində lektor, kafedra müdiri İbrahim Əhmədov gənclərin diqqətini 28 il əvvəl azğın erməni



birləşmələrinin Dağlıq Qarabağda törətdikləri vəhşiliyə yönəldərək qeyd etdi ki, mənfur qonşularımız keçən əsrdə bir neçə dəfə müxtəlif bölgələrdə talanlar törətmişlər. Onlar ötən əsrin sonunda Dağlıq Qarabağda dünya hərb tarixində görünməmiş vəhşiliklər edərək ərazidə yüksək strateji əhəmiyyətə malik və daha sıx əhalisi olan Xocalı şəhərini viranəyə çevirmiş, körpəyə, qocaya, qadına məhəl qoymadan dinc əhaliyə divan tutmuşlar.

Tələbələrə bu vəhşiliyi unutmamaq, faciənin miqyasını müxtəlif vasitələrlə gələcək nəsillərə və beynəlxalq ictimaiyyətə çatdırmaq tövsiyə edilib.

Faciə qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.




**İctimai səhiyyə fakültəsinin II kurs, 318$^{A1a}$ qrup tələbələri müəllimləri Hüseyn Abıyevlə birgə ATU-nun Bioloji kimya kafedrasında Xocalı faciəsini əks etdirən stendin önündə faciə qurbanlarını anıblar.**

# “Sabahın alimləri” IX Respublika müsabiqəsinin qalibləri mükafatlandırılıb

**Bakıda Intel ISEF – Beynəlxalq Elm və Mühəndislik Sərgisi çərçivəsində təşkil olunan “Sabahın alimləri” IX Respublika Müsabiqəsi keçirilib.**

Müsabiqə Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Gənclər və İdman Nazirliyi, Heydər Əliyev Mərkəzi, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi və BP-nin təşkilatçılığı ilə baş tutub.

Tədbirdə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra 2012-ci ildən bəri keçirilən "Sabahın alimləri" Respublika Müsabiqəsinə dair videoçarx nümayiş etdirilib.

Mərasimdə çıxış edən Təhsil naziri Ceyhun Bayramov Prezident İlham Əliyevin elmə, təhsilə böyük önəm verdiyini vurğulayıb.






Bildirib ki, elmi-innovativ təşəbbüslərin ön plana çəkilməsi, gənclərin elmi fəaliyyətə istiqamətləndirilməsi elmin və təhsilin qarşısında duran əsas prioritetlərdən biridir. Qeyd edilən çağırışlara uyğun olaraq, Təhsil Nazirliyi tərəfindən bir sıra uğurlu təşəbbüslər həyata keçirilməkdədir. Son illər ali təhsil müəssisələrində qlobal çağırışlara adekvat innovativ elmi strategiyaların həyata keçirilməsi istiqamətində təşəbbüslər də artırılıb, yeni elmi istiqamətlər üzrə tədqiqatlara başlanılıb.




Bu müsabiqəni ölkəmizdə həyata keçirilən uğurlu təhsil strategiyasının tərkib hissəsi kimi dəyərləndirən nazir gənclərimizin yaradıcı fəaliyyətinin təşviqi baxımından xüsusi əhəmiyyət daşıdığını deyib və qalibləri təbrik edərək onlara yeni nailiyyətlər arzulayıb.

Məlumat üçün bildirək ki, ATU-nun rektoru, professor Gəray Gəraybəylinin təşəbbüsü ilə bu maraqlı müsabiqəyə universitetimizin də alimləri qoşulmuşdur. Belə ki, Azərbaycan Tibb Universiteti ilə Bakı şəhərinin bir neçə orta məktəbi və liseyləri arasında olan razılaşmalara əsasən Elmi-Tədqiqat Mərkəzində şagirdlər üçün “İstedadlar axtarırıq” qrupu yaradılıb və onlar mütəmadi olaraq apardıqları tədqiqat işləri ilə Təhsil Nazirliyinin təşkil etdiyi müsabiqələrdə iştirak edirlər.

Artıq neçə illərdir ki, ETM-nin direktoru, professor Qalib Qarayevin xüsusi diqqət və qayğısı sayəsində mərkəz əməkdaşlarının elmi rəhbərliyi ilə tədqiqat işlərinə qatılan şagirdlər hər il ənənəvi olaraq keçirilən “Sabahın alimləri” müsabiqəsində dəfələrlə yüksək yerləri tutub və mükafatlar qazanıblar.

Bu ilki müsabiqədə münsiflər heyətinin qərarı ilə BDU-nun nəzdindəki “Gənc istedadlar” liseyinin 9-cu sinif şagirdləri Fərhad Hacıyev və Nərgiz Orucovanın “Tibb və sağlamlıq” nominasiyası üzrə professor Ramiz Axundov və dosent Fatma Rəcəbovanın rəhbərliyi altında “Koronar qan dövranının tənzimlənməsində qulaqcıq artrial natriuretik faktorun rolu” mövzusunda elmi tədqiqat işi 2-ci yerə (gümüş medala), 177 saylı tam orta məktəbin şagirdlərindən Qalib Qasımov və Cəmil Xəlilovun professor Xudayar Həsənov və dosent Şimid Qasımovun rəhbərliyi altında “Ağır metalların artıq miqdarının tiodiasetat turşusu ilə orqanizmdən çıxarılması” mövzusunda elmi tədqiqat işi isə 3-cü yerə (bürünc medala) layiq görülüb.

Qeyd edək ki, müsabiqədə müxtəlif kateqoriyalara görə I yerə 6 layihə üzrə 11 şagird, II yerə 16 layihə üzrə 29 şagird, III yerə 25 layihə üzrə 46 şagird layiq görülüb.

Qaliblər sırasından cari ilin may ayında ABŞ-da keçiriləcək ISEF–Beynəlxalq Elm və Mühəndislik Sərgisində iştirak etmək üçün 4 layihə (7 şagird) seçilib. Həmin şagirdlər BP-nin maliyyə dəstəyi ilə ABŞ-a göndəriləcək. Bundan əlavə, hər il olduğu kimi, bu il də ABŞ-ın müxtəlif elmi cəmiyyətləri tərəfindən şagirdlərə 10 mükafat təqdim edilib.

**M.ƏLƏKBƏRLİ**

# ATU daha bir əməkdaşlığa imza atdı

**◆ İmzalanan anlaşma memorandumunda bir çox yenilik nəzərdə tutulub.**



Azərbaycan Tibb Universiteti tələbələrinin beynəlxalq əlaqələrinin qurulması, tələbə mobilliyinin həyata keçirilməsi, universitin beynəlxalq miqyasda daha yaxşı tanıdılması istiqamətində daha bir təşkilatla əməkdaşlığı gücləndirir. Bununla bağlı ATU ilə Həkimlər və "Təbib Tələbələr" İctimai Birliyi arasında anlaşma memorandumu imzalanıb.

Memorandum ATU-nun rektoru, professor Gəray Gəraybəyli, Həkimlər və "Təbib Tələbələr" İctimai Birliyinin prezidenti Suğra Əzimova tərəfindən imzalanıb. Anlaşma sənədində tələbələrimizin beynəlxalq münasibətlərinin gücləndirilməsinə yardım edilməsi ilə yanaşı, həm də xarici ölkələrdən gələn tələbələrin istehsalat təcrübəsinin universitet klinikalarında təşkili ilə bağlı məsələlər əhatə olunub.

Qeyd edək ki, Həkimlər və "Təbib Tələbələr" İctimai Birliyi ilə ATU arasında 10 ildir sıx əməkdaşlıq mövcuddur. Sazişin imzalanması ilə bu əməkdaşlıq daha yeni istiqamətləri əhatə edəcək.

# Tədris şöbəsinin müdiri yeni ixtisaslar barədə məlumat verib

**◆ “Azərbaycan Tibb Universitetinə bu il imtahan verən abituriyentlər yeni yaradılmış ixtisasları da seçə biləcəklər. “Fizioterapiya və tibbi reabilitasiya”, “Tibb bacısı işi” ixtisaslarının hər biri üzrə 30 yer, “Səhiyyə menecmenti” və “Kliniki psixologiya” ixtisasları üzrə 15 yer planlaşdırılıb”.**



Bunu jurnalistlərə açıqlamasında ATU-nun tədris şöbəsinin müdiri, dosent Samir Cavadov deyib.

Onun sözlərinə görə, Nazirlər Kabinetinin qərarı ilə bakalavriat, eləcə də ali tibb təhsili səviyyəsi üzrə ixtisasların təsnifatında dəyişiklik edilərək, yeni ixtisaslar əlavə edilib. Dəyişikliyə əsasən, bakalavriat pilləsi üzrə “Fizioterapiya və tibbi reabilitasiya”, “Tibb bacısı işi”, magistratura üzrə isə “Səhiyyə menecmenti” və “Kliniki psixologiya” ixtisasları əlavə edilib: “Son zamanlarda səhiyyə sahəsində də geniş islahatlar aparılır. Dünyada bu ixtisaslar mövcud olsa da, bizdə hələ ki, bunun əvəzləyicisi yox idi. Məsələn, “Fizioterapiya və tibbi reabilitasiya” mütəxəssisləri Azərbaycan Tibb Universitetindən, yaxud digər tibb müəssisələrindən məzun olan həkimlər idi. Lakin həkimlər həmin ixtisas üzrə mütəxəssisləri tam olaraq əvəz edə bilmirlər. Çünki həkimlər o sahə üzrə daha çox müalicə-planlama işi ilə məşğuldurlar və müalicəni tətbiq etmək tibb bacılarının, yaxud o sahə üzrə mütəxəssisləşmiş digər orta tibb işçilərinin üzərinə düşürdü. Eyni zamanda ölkə Prezidentinin “2019-2023-cü illərdə ali təhsil müəssisələrində rəqabətliliyin artırılması” ilə bağlı sərəncamına əsasən, dünyada mövcud olan ixtisaslara uyğunluğu təmin etmək üçün bu ixtisaslara zərurət yaranırdı. Buna görə də ATU-nun rəhbərliyi aparılan islahatlar çərçivəsində bu ixtisasların yaradılması qərarını verdi. Səhiyyə və Təhsil nazirliklərinə müraciət edərək bu ixtisasların yaradılması üçün icazə istədi. Artıq bu ixtisaslar təsdiqlənib”.

Sözünə davam edən şöbə müdiri “Tibb bacısı işi”nin Azərbaycanda bakalavriat səviyyəsində yeni ixtisas olduğunu diqqətə çatdırıb: “Düzdür, orta tibb təhsili müəssisələrində bu ixtisas üzrə iki illik proqram vardı. Dünyada da tibb bacısı ixtisası iki illik təhsil şəklində fəaliyyətə başlamışdı, sonradan isə onların ali təhsil almaq zərurəti yarandı. Bakalavr təhsili zamanı “Tibb bacısı” ixtisasını öyrənənlər daha çox komanda şəkilində işləmək bacarığı qazanırlar. Həkimlər əsasən diaqnozun qoyulması, müalicənin planlanması və xəstələrin müalicələrinin gedişi ilə məşğuldurlar. Lakin müalicənin aparılması tibb bacılarına həvalə olunur. Dörd illik təhsildə daha çox onların baza təhsili ilə yanaşı, peşə bacarıqlarının artırılması yönündə bir çox fənlər tədris ediləcək. Eyni zamanda bu ixtisas üzrə məzunların ixtisaslaşması aparılacaq, hər bir sahə üzrə “neyrocərrahiyyədə tibb bacısı”, “cərrahiyyədə tibb bacısı”, “pediatriyada tibb bacısı” kimi ixtisaslaşmalar həyata keçiriləcək. Təəssüf ki, hələ bizdə bu ixtisaslaşmalar yoxdur. Tibb bacısı bakalavriat təhsili olduğuna görə, bu ixtisası bitirənlər sonradan magistratura təhsili də ala bilərlər, eyni zamanda doktorantura-dissertantura üzrə təhsillərini davam etdirərək elmi-tədqiqat işləri ilə də məşğul ola bilərlər ki, bu da Azərbaycan tibbində yeni bir çağın başlanğıcı olacaq”.

S.Cavadov qeyd edib ki, bir çox insanları orta ixtisas təhsili müəssisələrində tədris edilən iki illik “Tibb bacısı işi” ixtisasının taleyi də narahat edir: “Bu ixtisasların gələcək taleyi barədə danışmaq tezdir. İndiyə qədər məzun olanlar öz işlərini tibb bacısı ixtisası üzrə davam edəcəklər. Orta tibb təhsili müəssisələrinin məzunları arzuladıqları təqdirdə tibb bacısı ixtisası üzrə bakalavr təhsili ala biləcəklər. Texnikumdan məzun olan tələbələr “Subbakalavr təhsili olanların ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olunması qaydaları” daxilində təhsillərini davam etdirə bilərlər. Tələbələr iki il aldığı təhsildən əlavə yenidən dörd il təhsil alacaq, lakin bu təhsil zamanı əvvəl öyrəndiyi bir çox fənlərlə uyğunluq varsa, həmin fənləri ali təhsil müəssisəsində öyrənməyə bilər. “2019-2023-cü illərdə ali təhsil müəssisələrində rəqabətliliyin artırılması” ilə bağlı sərəncama uyğun olaraq hazırkı proqramlar dünyada mövcud olan ali təhsil müəssisələrinin proqramlarına uyğunlaşdırılacaq. Bu sahədə işlər artıq yekunlaşmaq üzrədir. Eləcə də dərs vəsaitləri dünyada mövcud olan proqramlar üzrə hazırlanacaq”.

**ATU-nun mətbuat xidməti**

# "Qarabağ: Əcdadlarımızın mirası" adlı filmin təqdimatı olub

**ATU-nun Tələbə Gənclər Təşkilatı Gənclər və İdman Nazirliyi ilə birgə "Qarabağ: Əcdadlarımızın mirası" adlı filmin təqdimatını keçirib.**




Təqdimat mərasimində tədris və müalicə işləri üzrə prorektor, professor Sabir Əliyev tarix boyu xalqımıza qarşı törədilmiş faciələr haqqında danışıb. Bunlardan ən dəhşətlisi sayılan Xocalı soyqırımının 28-ci ildönümü günündə prorektor bu faciənin qurbanları barəsində tələbələrə məlumat verib. Torpaqlarının 20 faizi işğal altında olan bir ölkənin gənclərinin keçmişimizə bağlı və vətənpərvər olmasının vacibliyini qeyd edib. Bildirib ki, dövlət başçısının apardığı siyasət nəticəsində torpaqlarımız tezliklə düşmən tapdağı altından azad olunacaq. Azərbaycan prezidenti İlham Əliyevin beynəlxalq tədbirlərdə səsləndirdiyi "Qarabağ Azərbaycandır!" ifadəsi ölkəmizin beynəlxalq ictimaiyyətdə mövqeyini daha da gücləndirib.



Sonra "Qarabağ: Əcdadlarımızın mirası" adlı sənədli filmi nümayiş etdirilib. Azərbaycan, ingilis və rus dillərində istehsal edilən "Qarabağ: Əcdadlarımızın mirası" sənədli filmi Azərbaycanın ayrılmaz tərkib hissəsi olan doğma Qarabağ torpaqlarının, onun mədəni irsinin ölkəmizə, xalqımıza məxsus olması və bu gerçək həqiqət haqqında erməni yalanlarının ifşa olunmasına həsr edilib. Filmin əsas məqsədi bu məlumatları dünya ictimaiyyətinə obyektiv çatdırmaqdır. Film Gənclər və İdman Nazirliyinin dəstəyilə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu və "Virtual Qarabağ" İnformasiya-Kommunikasiya Texnologiyaları Gənclər İctimai Birliyinin birgə əməkdaşlığı çərçivəsində hazırlanıb.

Nümayiş Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15 sentyabr 2017-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının icrasının təmin edilməsi məqsədilə Gənclər və İdman Nazirliyinin keçirdiyi silsilə tədbirlər əsasında Azərbaycan Tibb Universitetində sərgilənib.

# "Ağır travmatoloji xəstələrə yanaşma və travmatik şok" mövzusunda seminar keçirilib

**Fevralın 24-də ATU-nun Tədris Cərrahiyyə Klinikasında Taravmatologiya və ortopediya, Reanimatologiya-anesteziologiya və intensiv terapiya şöbələrinin birgə təşəbbüsü ilə "Ağır travmatoloji xəstələrə yanaşma və travmatik şok" mövzusunda seminar keçirilib.**



Travmatologiya və ortopediya şöbəsinin müdiri, dosent Cəfər Nəsirli, Reanimatologiya-anesteziologiya və intensiv terapiya şöbələsinin müdiri, dosent Cavid Paşayev çıxış edərək müştərək seminarın keçirilməsinin vacibliyinə toxunub və mövzu ətrafında aparılacaq müzakirələrin iştirakçılar üçün faydalı olacağını vurğulayıblar.

Sonra rezidentlərdən Kənan Quliyev və Aişə Yolçuzadə mövzu ətrafında çıxış ediblər. Onlar çıxışlarında travmatik xəstələrin müayinə və müalicəsi, ilkin tibbi yardımın necə göstərilməsi, travmatik şokun mərhələləri və s. ilə bağlı seminar iştirakçılarına ətraflı məlumat veriblər.

Seminar geniş diskusiya və sual-cavablarla işini yekunlaşdırıb.

# Amerikalı ailə həkiminin Ailə təbabəti kafedrasında təlimi

***Artıq heç kimə sirr deyil ki, icbari tibbi sığortanın tətbiqi ilkin səhiyyə xidmətinin ən yüksək səviyyədə çalışmasını tələb edir və ailə həkimi müayinə üçün vətəndaşın müraciət etdiyi birinci ünvandır.***





ATU-nun Ailə təbabəti kafedrasının məqsədi də tələbələrin səhiyyənin ilkin mərhələsi olan poliklinika işini yaxından bilməsi, təcili və təxirəsalınmaz yardımı göstərə bilməsi, ekspertiza məsələlərini öyrənməsidir. Fənnin mənimsənilməsi nəticəsində tələbələr differensasiya qabiliyyətinə daha mükəmməl yanaşmanı, diaqnostika və ekspertiza işində biliklərini artırmalıdırlar. Əlavə olaraq, qeyd etmək lazımdır ki, 2020-ci ildən ailə həkimliyi üzrə rezidenturaya qəbul başlayacaq.

Bunları nəzərə alaraq və beynəlxalq təcrübə ilə tanış olmaq niyyətilə, Ailə təbabəti kafedrasının müdiri, professor Mustafa Salihovun dəvəti ilə, kafedra əməkdaşlarının və müalicə-profilaktika fakültəsinin V kurs tələbələrinin iştirakı ilə, amerikalı ailə həkimi Stiv Stonhaus təlim aparır.

Təlim zamanı ailə həkiminin təcrübəsində müxtəlif profilli sıx rast gələn xəstələrin erkən aşkarlanması, müasir diaqnostika üsulları və müalicəsi, həmçinin, təcili və təxirəsalınmaz halların idarə olunması haqqında danışılır, preventiv tibb və peyvəndlər tətbiqinin öyrənilməsinə geniş yer ayrılır. Bundan əlavə praktiki bacarıqların təkmilləşməsi üçün məşğələlər keçirilir.

Təlimlər kafedranın əsas bazasının yerləşdiyi 3 saylı şəhər poliklinikasında semestr boyu həftədə bir gün saat 15.30-da keçirilir. Əlaqə telefonu isə (050) 793 65 31. Bütün arzu edənləri bizim təlimlərə dəvət edirik!

**İ.RƏSUL,**
*Kafedranın əməkdaşı*

# ƏMƏKDAŞIMIZ BEYNƏLXALQ TƏŞKİLAT TƏRƏFİNDƏN MAARİFLƏNDİRİCİ TƏDBİRƏ DƏVƏT ALIB

**Tibbi biologiya və genetika kafedrasının baş müəllimi b.ü.f.d. Aytəkin Həsənova Gürcüstanda Azərbaycan Beynəlxalq Diaspor Mərkəzinin Gürcüstandakı nümayəndəliyi, Estoniya Beynəlxalq Araşdırma, Təhsil və Təlim Mərkəzi (Estoniya, Tallin) olaraq qeydiyyatdan keçmiş beynəlxalq təşkilat tərəfindən təsis edilən elmi jurnalların – Gülüstan-Qara Dəniz Elmi Akademik Tədqiqatlar Jurnalının (GBSSJAR), Cənubi Qafqaz Beynəlxalq Elmi Təbabət Jurnalının (ALISJMSC) və Beynəlxalq Tədqiqat Təhsil və Tədris Mərkəzinin Materialları Toplusunun (PIRETC) redaksiya şurasının üzvlərinin Tbilisi Dövlət Tibb Universitetində maarifləndirici görüş tədbirinə dəvət alıb.**



O, Gülüstan-Qara Dəniz Elmi Akademik Tədqiqatlar Jurnalında (GBSSJAR) beynəlxalq məsləhətçi və redaksiya şurasının üzvü, eyni zamanda jurnalın tibb bölməsinin baş redaktoru, kimi bu tədbirdə iştirak edib. A.Həsənova 13-14 mart tarixində Azərbaycan Tibb Universitetində keçiriləcək "İnsan genetikası və genetik xəstəliklər: problemlər və inkişaf perspektivləri" mövzusunda I beynəlxalq konfrans haqqında da geniş məlumat verib.

Onun sözlərinə görə, planlaşdırılan beynəlxalq konfransın materialları beynəlxalq jurnal olan Gülüstan - Qara Dəniz Elmi Akademik Tədqiqatlar Jurnalının (GBSSJAR) xüsusi buraxılışında dərc olunacaq və redaksiya heyətinin müxtəlif xarici ölkələrdən olan 20-dən çox üzvü Bakıda keçiriləcək konfransda görüşəcəkdir. Daha sonra Aytəkin xanım Gürcüstan Dövlət Tibb Universitetinin bir qrup genetikləri ilə görüşüb, onların təklifi ilə Gürcüstanın Tibbi Genetika və Epigenetika, eyni zamanda Prenatal Diaqnostik Genetika Cəmiyyətlərinə üzv seçilib.

# Tələbə Gənclər Təşkilatı aktiv fəaliyyətini davam etdirir

***Tələbə Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən "Mədəniyyət günləri" layihəsi yeni semestrdə öz fəaliyyətinə görkəmli həkim və siyasi xadim Nəriman Nərimanovun ev muzeyini ziyarət etməklə başlayıb.***

Fevralın 22-də baş tutan ekskursiya zamanı tələbələr həm ev muzeyi ilə tanış olub , həm də Abdulla Şaiqin ev muzeyi və Nəriman Nərimanovun ev muzeyinin birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunan tədbirdə iştirak ediblər. Tədbirdən öncə tələbələrimiz Xocalı Soyqırımına həsr olunmuş çap materiallarından və fotolardan ibarət sərgi ilə də tanış olublar.

Tədbiri N.Nərimanovun xatirə muzeyinin direktoru Kamilə Hüseynova açıb və soyqırım qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Tədbir Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən Xocalı Soyqırımına həsr edilən sənədli filmin nümayişi ilə başa çatıb.

**ATU-nun mətbuat xidməti**

*Yubiley təbrikləri*

# Əlisa Kamalbəyov-60

**◆ 60 ili insan ömrünün zirvəsi adlandırırlar. Azərbaycan Tibb Universitetinin Hərbi səfərbərlik şöbəsinin müdiri Əlisa Kamalbəyov da bu zirvəyə çatıb. Onu bu zirvəyə aparan yol mənalı və məzmunlu olub.**

Əmək fəaliyyətinə 1960-cı ildə dünyaya göz açdığı Əli-Bayramlı (indiki Şirvan) şəhərində başlamışdır. 1985-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda ibtidai hərbi təlim və bədən tərbiyəsi ixtisası alandan sonra 1993-cü ilədək Şirvan şəhərindəki 1 və 5 saylı orta məktəblərdə hərbi rəhbər vəsifəsində işləmişdir.

1993-cü ildən 2005-ci ilədək Azərbaycan Silahlı Qüvvələrində xidmət etmişdir. 2012-ci ilədək daha 3 yerdə - Qobustan rayon Hərbi Komissarlığında çağırış üzrə köməkçi, Bakı şəhəri Nizami rayon Hərbi Komissarlığında çağırış şöbəsinin rəisi və Səhiyyə Nazirliyinin II şöbəsində məsləhətçi vəzifəsində çalışmışdır.

Əlisa müəllimin sonrakı əmək fəaliyyəti Azərbaycan Tibb Universiteti ilə bağlıdır. O, Silahlı Qüvvələrdə "Qüsursuz xidmətə görə" və Silahlı Qüvvələrin "10 illiyi yubileyi" medalları ilə təltif olunmuşdur.

Əlisa müəllim işlədiyi bütün yerlərdə böyük hörmət və nüfuz qazanıb. Gənclərə xeyirxah məsləhətlər verib, onlara düzgün yol göstərib. Yetirmələrinin bir çoxu onun yolu ilə gedərək Azərbaycan Ordusunda ləyaqətlə xidmət edirlər. Onların arasında yüksək rütbəli zabitlər də var.



Əlisa müəllim həm də nümunəvi valideyndir. İki övladı var.

Biz də öz dəqiqliyi və xeyirxahlığı ilə seçilən Əlisa müəllimi 60 illik yubileyi münasibətilə təbrik edir, yubilyara sağlam ömür, bundan sonrakı fəaliyyətində də uğurlar arzulayırıq!

***Hərbi səfərbərlik şöbəsinin əməkdaşları***

# Rəfail Abduləlimov-60



Rəfail Abduləlimov 30 ildən çoxdur ki, ATU-nun mühasibatlıq şöbəsində yorulmadan işləyir. O, çalışdığı bu müddət ərzində doğma kollektivin dərin hörmətini və etibarını qazanıb.

Hörmətli həmkarımızın bu günlərdə 60 yaşı tamam oldu. Biz də kollektivimizin sevimlisi Rəfail müəllimi yubileyi münasibətilə təbrik edir, ona insan üçün ən şirin nemət olan cansağlığı, ailə xoşbəxtliyi, işlərində bol-bol nailiyyətlər diləyirik.

***Mühasibatlıq şöbəsinin əməkdaşları***

# Tələbə Həmkarlar İttifaqının fəalları Qış Liderlik Məktəbinin iştirakçısı olublar

**◆ Xaçmaz rayonunda "Tələbə həmkarlar ittifaqı komitələri könüllülük hərəkatının təməllərindən biridir" mövzusunda Qış Liderlik Məktəbi başa çatıb. Nabrandakı "Təhsil" istirahət mərkəzində keçirilən tədbirə Azərbaycanın 29 ali təhsil müəssisəsindən 100-dən artıq tələbə qatılıb.**





Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) tərəfindən təşkil olunan Qış Liderlik Məktəbində ATU-nun Tələbə Həmkarlar İttifaqının fəalları da iştirak ediblər.

Tədbirin məqsədi Prezident İlham Əliyevin 2020-ci ili ölkəmizdə "Könüllülər ili" elan etməsi ilə əlaqədar könüllülüyün təbliğinə töhfə verməkdən ibarət olub.

Üç gün davam edən Qış Liderlik Məktəbi çərçivəsində müxtəlif mövzularda panel müzakirələr keçirilib. Müzakirələr zamanı tələbələr könüllülüyün məqsəd və prinsipləri, ölkəmizdə gənclərin könüllü fəaliyyətə cəlb olunması sahəsində görülən işlər və könüllülüyün inkişafı məqsədilə həyata keçirilən tədbirlər barədə ətraflı məlumatlandırılıblar. Bildirilib ki, bu cür tədbirlər gəncləri könüllülük fəaliyyətinə cəlb etmək, onların fərdi inkişafına təkan vermək, sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək üçün əhəmiyyətlidir.

Tələbələr Qış Liderlik Məktəbi çərçivəsində müxtəlif idman növləri üzrə yarışlarda və intellektual oyunlarda da iştirak ediblər.

Tədbir çərçivəsində Quba Soyqırımı Memorial Kompleksi də ziyarət olunub. Bu zaman Qış Liderlik Məktəbinin iştirakçıları ermənilərin törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılıblar. Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksində quraşdırılmış sensor ekranlı monitordakı xüsusi xəritədə ermənilərin ötən əsrdə xalqımıza qarşı respublikamızın müxtəlif bölgələrində həyata keçirdikləri soyqırımı aktları barədə bir neçə dildə məlumat əldə etmək mümkündür.

# "İnsultun Menecmenti" mövzusunda təlim keçirilib

**◆ Fevralın 14-dən 17-dək ATU-nun Tədris Terapevtik Klinikasında "ATU-da İnsultun Menecmentinin Təkmilləşdirilməsi Proqramına uyğun olaraq İnsult Mərkəzinin yaradılması Pilot Layihəsi (2019-2020)" çərçivəsində İnsultun menecmenti üzrə təlimin 1-ci və 2-ci modulları keçirilib.**

təlim kursunun fəaliyyətində eyni zamanda tibb tələbələri və həkim-rezidentlər iştirak edirdi ki, bu da Azərbaycanın gələcək tibb potensialının gücləndirilməsi üçün xüsusi önəm daşıyır.

Qeyd edək ki, insultun diaqnostikası və müalicəsinin erkən aparılması daha ciddi ağırlaşmaların qarşısını almağa, həyat keyfiyyətinin və ömür uzunluğunun yaxşılaşdırılmasına kömək edir.

Bu təlimdə insultun diaqnostikası və



Azərbaycan Tibb Universiteti, Azərbaycan Nevroloqlarının Milli Assosiasiyası, İctimai Səhiyyə və İslahatlar Mərkəzinin birgə əməkdaşlığı, Uptodate in Medicinenin təşkilati dəstəyi ilə keçirilən təlimin məqsədi Azərbaycanda İnsult Mərkəzinin yaradılması üçün tibb işçilərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi, bu sahədə müasir yeniliklər ilə tibb işçilərini tanış etmək olub.

Təlim kurslarında Danimarka, Rusiya və Azərbaycandan mütəxəssislər iştirak edib. Bu müalicəsində, habelə, həmin xəstələrin təqibi ilə bağlı ən müasir məlumatlar paylaşıldı və fikir mübadiləsi aparıldı. Layihə çərçivəsində klinik insultun profilaktikasına dair klinik təlimatların da hazırlanması həyata keçirildi.

Təlimin hər iki modulu Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası tərəfindən Davamlı Tibbi Təhsil fəaliyyəti kimi akkreditasiya olunub və hər modul 16 DTT kredit balı ilə dəyərləndirilib.

# Kafedra özünün rəsmi saytını təqdim etdi

**ATU-nun Şüa diaqnostikası və terapiyası kafedrasının rəsmi saytı fəaliyyətə başlayıb. Saytın yaradılmasında əsas məqsəd kafedrada görülən işlər haqqında ictimaiyyətə ətraflı məlumatın verilməsidir. Əsas hədəf modern dizayn və zəngin tərtibatı olan səhifədə operativ informasiyanın yerləşdirilməsi, tədrisin keyfiyyətinin yüksəlməsi məqsədilə ümumi çevikliyi təmin etməkdir.**




Kafedranın müdiri t.e.d. Məlahət Sultanova qeyd edib ki, saytda dərs cədvəlləri, sillabuslar və proqramlar, tələbələrin istifadə edə biləcəkləri mənbələr (PDF variantları), müxtəlif elektron resurslar və linkər daxil edilib: "Müasir təhsilin bütün vacib tələblərini qarşılayacaq, ona fayda verə biləcək potensiala sahib olan bu saytda kafedrada aparılan elmi işlər, əməkdaşlarımızın iştirak etdiyi konfranslar, elmi məqalələrin yerləşdirilməsi nəzərdə tutulub. Saytda pasiyentlər üçün də maarifləndirici məlumatlar yerləşdiriləcək, həmçinin suallar onlayn cavablandırılacaq".

M.Sultanova deyib ki, "amurad.az" saytında bu sahəyə aid maraqlı xəstəliklər barədə məlumatlar, fotolar yerləşdiriləcək ki, bu da tələbə və həkim rezidentlərin böyük marağına səbəb ola bilər.

Kafedranın gündəlik fəaliyyətini əks etdirəcək bu saytın tərtibatı linklərin forma və məzmun əhatəliyi, müasir radiologiyanın əhatə etdiyi bütün sahələrə dair şəkillərin yerləşdirildiyi foto-qalereyanın operativliyi ilə seçilir. Saytda müxtəlif menyular və submenyular mövcuddur.

Bunlardan əlavə, saytda yeni təsis olunmuş Azərbaycan Radiologiya Cəmiyyəti və Avropa Radiologiya Cəmiyyətində aparılan işlər, konfranslar, treyninq və kurslar haqqında mütəmadi olaraq məlumat veriləcək.

Tibbi radiologiya tibbin anbaan inkişaf edən, müxtəlif şüaların diaqnostika və müalicə məqsədilə istifadə edildiyi, texnoloji yeniliklərin uğurlu nəticələrinin tətbiqinə əsaslanan və bütün sahələrlə sıx əlaqədə olan elm sahəsidir. Odur ki, bu sahəyə aid ixtisaslı sayt istifadəçilər üçün gözəl və etibarlı mənbə rolunu oynayacaq.

**ATU-nun mətbuat xidməti**

# İki kafedranın birgə seminarı

**Rezidentlər üçün növbəti ənənəvi seminar ATU-nun Tədris Cərrahiyyə Klinikasında Ağız və üz-çənə cərrahiyyəsi, Qulaq, burun və boğaz xəstəlikləri kafedralarının birgə iştirakı ilə keçirilib.**



Xəstə təhlili ilə başlayan seminarda açılış nitqi ilə çıxış edən Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Rəhimov 2011-ci ildən ölkəmizdə rezidentura məktəbinin təsis olunduğunu xatırladaraq ilk gündən rezidentlərlə işbirliyi yaratmağa çalışdıqlarını deyib: "Artıq onlar tələbəçilik əhvali-ruhiyyəsindən uzaqlaşmalı, kolleqalarımız kimi formalaşmalıdırlar. Biz rezidentlərdən referativ iş deyil, bu sahənin ən qabaqcıl məlumatlarını və təhlilini gözləyirik. Gərək bizi gündəlik bir ritmdə saxlasınlar ki, arxamızca kimlərin gəldiyini biləк. Vaxt etibarı ilə imkanlarının bizdən daha çox olduğunu nəzərə alsaq, onlardan gözləntilərimiz də böyükdür".

Rezidentura şöbəsinin Tədris Cərrahiyyə Klinikası üzrə məsul şəxsi, assistent Namiq Xəlilov, Qulaq, burun və boğaz xəstəlikləri kafedrasının müdiri, professor Vəfa Pənahian hər iki kafedranın birgə seminarlar keçirməsinin əhəmiyyətini, qarşılıqlı əməkdaşlığın gələcəkdə də davam etdirilməsinin vacibliyini vurğulayıblar.

Sonra Ağız, üz və çənə cərrahiyyəsi şöbəsinin V kurs rezidenti Pərvin Həsənova "Parotidektomiya əməliyyatı sonrası yaranan sinir patologiyaları və diaqnostikası", Qulaq, burun və boğaz şöbəsinin II kurs rezidenti Dilarə Əzimli isə "Nazal poliplər" mövzusunda məruzə ilə çıxış ediblər.

Seminarın gedişində mövzulara dair suallar cavablandırılıb və geniş fikir mübadiləsi aparılıb.

# Şüa diaqnostikası və terapiyası kafedrasının rezidentlərinin seminarlarına start verilib

**ATU-nun Tədris Cərrahiyyə Klinikasında Şüa diaqnostikası və terapiyası kafedrasının rezidentlərinin seminarlarına start verilib. Qrafikə əsasən, yeni tədris ilində seminarlar iyun ayınadək davam edəcək.**





İlk seminarda III kurs rezidenti Dursun Həsənov "Qaraciyər və öd yollarına invaziv müdaxilələr" mövzusunda çıxış edib. Müasir radiologiyanın ən maraqlı sahələrindən biri olan invaziv radiologiyaya həsr olunmuş məruzədə qaraciyər və öd yollarında mövcud olan müxtəlif problemlərin invaziv yolla həllindən, bu sahədə olan yeniliklərdən, şəxsi praktikasından danışıb və sonda sualları cavablandırıb.

Məlumat bildirək ki, hazırda kafedrada müxtəlif kurslar üzrə 42 nəfər rezidentura təhsili alır, onlardan 4-ü xarici vətəndaşdır. Rezidentlərin nəzəri və praktiki fəaliyyətləri ilə yanaşı, onlarda elmi potensialın güclənməsi və auditoriya bacarıqlarının formalaşmasında vaxtaşırı keçirilən seminar və konfransların mühüm əhəmiyyəti var. Tibb təhsilinin master pilləsi sayılan rezidenturanın keyfiyyətli tədrisi səhiyyəmizin gələcəyini təmin edən prioritet məsələlərdən biridir.

Azərbaycan Tibb Universitetində bu vacib məsələnin müvəffəqiyyətli həlli üçün hər cür şərait yaradılıb. Rezidentlərlə işin düzgün qurulması onların gələcəkdə savadlı həkim, pedaqoq və alim kimi yetişməsində mühüm rol oynayır. Odur ki, kafedra rəhbərliyi bu sahədə calışan gənc həkimləri və rezidentləri seminarlarda iştiraka dəvət edir.

Qeyd edək ki, Şüa diaqnostikası rezidentlərinin seminar cədvəli ATU-nun Şüa diaqnostikası və şüa terapiyası kafedrasının rəsmi saytında paylaşılıb.

# Uşaqlarda davamlı simptomlara diqqət yetirilməlidir

**◆ ATU-nun Tədris Terapevtik Klinikasının Uşaq Kardiorevmatologiya şöbəsinin rezidentlərinin iştirakı ilə keçirilən müzakirələr artıq ənənəvi xarakter alıb. Fevralın 20-də keçirilən növbəti belə toplantıda professor Surxay Musayev gənc rezident-həkimlər tərəfindən hər dəfə yeni bir mövzu ilə bağlı təqdimat keçirilməsinin onların gələcək inkişafına müsbət təsir göstərdiyini bildirdi.**



Bu dəfəki müzakirədə rezident Arzu Məmmədli "Uşaqlarda ezofagit və differensial diaqnostikası" mövzusunda çıxış edib. Bildirib ki, ezofagit - qida borusunun selikli qişasının iltihabı ilə müşayiət olunan xəstəlikdir. Çoxamilli xəstəlik olan ezofagitin ezofaqal simptomlarına - yanğı hissiyyatı, gəyirmə, disfagiya aid edilir: "Bu xəstəliyi olan uşaqlar davamlı qusma və qaytarma simptomlarından əziyyət çəkir. Bundan əlavə, "həyəcan simptomlarına" da diqqət yetirilməlidir: respirator pozuntular, bədən çəkisinin azalması və s. Xronik öskürək simptomları ilə müşayiət olunan patoloji hallar zamanı ezofagit də istisna olunmalıdır. Əsas müayinə üsullarından rentgenoloji və endoskopik müayinələri göstərmək olar. Pəhrizlə yanaşı, müalicə sxeminə antasid, prokinetik, antisekretor preparatlar daxildir."

Digər məruzə isə rezident İlahə Bədəlovanın "Yad cismin aspirasiyası sindromu" mövzusu ilə bağlı idi. İlahə Bədəlova qeyd etdi ki, pediatrik tənəffüs yollarına yad cismlərin aspirasiyası çox hallarda respirator distress, ağırlaşmalar və hətta ölümlə nəticələnə bilir. Rezident vurğuladı ki, bu sindrom daha çox 3 yaşından aşağı olan uşaqlarda tez-tez müşahidə edilir: "Yad cismin aspirasiyası nəticəsində yaranan simptomlar müxtəlifliyi ilə seçilir, əsasən yad cismin ölçüsü, tıxandığı yer və aspirasiyanın kəskin və ya xronik olmasından asılı olur. Uşaqlar bəzi hallarda heç bir narahatçılıq hiss etməyə bilər və ya tənəffüs çatışmazlığı ilə xəstəxanaya çatdırılmış ola bilər. Bəzi uşaqlarda aspirasiya vaxtında müəyyən edilmir, onlar uzun müddət digər xəstəliklərdən, xüsusilə də, bronxial astma və xroniki (kəskin) bronxitdən, yuxarı tənəffüs yollarının infeksiyalarından müalicə alırlar. Lakin, müalicə tədbirləri həmin uşaqlarda heç bir müsbət nəticə vermir. Yalnız bronxoskopiya zamanı yad cismlər müəyyən edilir. Bəzi hallarda döş boşluğunun rentgen filmində yad cismlər görünməyə də bilər".

İ.Bədəlova qeyd edib ki, təsvir edilmiş simptomlarla müraciət zamanı həkim mütləq yad cismin aspirasiyasını diqqətdə saxlamalıdır.

Təqdimatdan sonra iştirakçılar arasında qızğın müzakirələr aparıldı. Kafedranın əməkdaşları Ələkbər Həsənov, İradə Səfərova, Ülviyyə Hacıyeva və Lalə Hidayətova klinik təcrübə zamanı müşahidələrini bölüşdülər.

Tədbir şöbədaxili cari problemlərin müzakirəsi ilə davam etdi.

# Ürək-damar xəstəliklərini əmələ gətirən səbəblər müzakirə olunub

**Fevralın 20-də ATU-nun Tədris Cərrahiyyə Klinikasında rezidentlər üçün növbəti ənənəvi seminar keçirilib. Seminarda İnvaziv kardiologiya şöbəsinin I kurs rezidenti Nailə Vəliyevanın "İvabradin, Dapoqliflozin, Sakubitril- valsartan tədqiqatları və rəhbər tövsiyələrinə gedən yol" mövzusunda məruzəsi dinlənilib.**



Elmi rəhbəri İnvaziv kardiologiya şöbəsinin assistenti Yasmin Rüstəmova olan məruzəçi çıxışında ürək-damar xəstəliklərini əmələ gətirən səbəblərdən bəhs edib və ürək fəaliyyətinin çatışmazlığı zamanı istifadə olunan dərman maddələrinin təsirindən geniş söhbət açıb. O, qeyd edib ki, ürək çatışmazlığı zamanı dərman vasitələrinin istifadə qaydalarına ciddi əməl olunmalı, dərman sisteminin patofizioloji təsir mexanizminin nədən ibarət olduğu öyrənilməli və ürəyin nəbzini azaldan vasitələrindən düzgün istifadə edilməlidir.

Sözünə davam edən məruzəçi bildirib ki, son illər ürək-damar xəstəliyi, eyni zamanda ürək fəaliyyətinin çatışmazlığı sindromu nəinki ölkəmizdə, eləcə də bütün dünyada böyük problemə çevrilib. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) son məlumatına görə bu xəstəlikdən əziyyət çəkənlərin sayı 30-40 % çoxalıb və bu xəstəlikdən ölənlər isə digər xəstəliklərlə müqayisədə birinci yerdədir.

Diskussiya formasında keçən seminarın gedişində mövzuya dair suallar cavablandırılıb və mövzu ətrafında geniş fikir mübadiləsi aparılıb.



# Şüa diaqnostikası və terapiyası şöbəsində fərqli rakursda mühazirə

**ATU-nun Şüa diaqnostikası və terapiyası kafedrasının müdiri, dosent Məlahət Sultanova Tədris Cərrahiyyə Klinikasında II Müalicə-profilaktika fakültəsinin III kurs tələbələrinə fərqli rakursda mühazirə deyib.**





Mühazirə "Şüa diaqnostikası metodlarının əsasları" mövzusunda olub və tələbələrə şüa diaqnostikası haqqında, radiologiya şöbəsi və fəaliyyəti barədə məlumat verilib. Fərqlilik isə ondan ibarət olub ki, mühazirə zamanı tələbələr canlı yayımla radiologiya şöbəsinə bağlanıb, rentgen, kompyuter-tomoqrafiya, ulturasəs kabinetlərində gedən işlər, müayinələrin aparılması ilə tanış olublar.

M.Sultanova mühazirəsi zamanı müasir tibbin modern ixtisaslarından sayılan şüa diaqnostikası sahəsinin tədris olunmasının səbəbləri barədə də geniş açıqlama verib.

Tələbələrin marağına səbəb olan mühazirə sual-cavab əsasında işini başa çatdırıb.

# Doktorantımız İstanbulda mükafata layiq görülüb

**Azərbaycan Tibb Universitetinin Onkologiya Kafedrasının doktorantı, Onkoginekoloq Əkbər İbrahimov Türkiyədə beynəlxalq tədbirə qatılıb. O, fevralın 19-dan 22-dək İstanbul şəhərində keçirilən III Minimal İnvaziv Ginekoloji Onkoloji Cərrahi Konqresində iştirak edib.**

Ə.İbrahimov konqresdə uşaqlıq cisminin xərçənginə görə icra etdiyi "Çanağın Laparoskopik Limfodisseksiyası" əməliyyatını video vasitəsilə məruzə edib. Onun məruzəsi böyük marağa səbəb olub.

Ə.İbrahimov onkoginekoloqlar arasında keçirilən "O video Türkiyə" müsabiqəsində ən yüksək bal alaraq birinci yerə layiq görülüb və münsiflər heyəti tərəfindən mükafatla təltif edilib.




# D vitaminindən istifadənin faydaları

**Hazırda dünyada iyirmidən çox vitamin və vitaminəbənzər maddələr məlumdur. Bu maddələrə sutkalıq tələbatın milliqramlarla olmasına baxmayaraq, onlar orqanizmdə çox mühüm funksiyalar yerinə yetirir.**

Orqanizmdə vitanin mübadiləsinin pozulması əsasən hipovitaminoz (vitamin azlığı) və avitaminoz (vitamin çatışmazlığı), bir sıra hallarda hipervitaminoz (vitamin artıqlığı) şəklində özünü göstərir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə Yer kürəsi əhalisinin təxminən 80 %-ə qədəri hipovitaminoz halından əziyyət çəkir. Statistik məlumatlarda dünyanın bir sıra regionlarında hələ də raxit, beri-beri, pellaqra, mövsümi sinqa xəstəliklərinə (müvafiq olaraq – D, B1, PP və C vitaminlərinin çatışmazlığı) rast gəlinir.

Orqanizmdə mübadilə prosesində mühüm rolu olan vitaminlərdən biri də D vitaminidir. Bu vitamin orqanizmdə kalsium-fosfor mübadiləsini tənzimləyir və sümükləşmə prosesini intensivləşdirir. Öyrənilmişdir ki, D vitamininin təsiri altında bağırsaqlarda qidadan kalsiumun mənimsənilməsi yüksəlir və qanda onun səviyyəsi tənzimlənir. Həmçinin, fosforun böyrəklərdən reabsorbsiyası hesabına orqanizmin fosforla təchizatı yaxşılaşır. Bunlardan əlavə D vitamini mineral maddələrdən manqanın mənimsənilməsini, qurğuşunun isə orqanizmdən xaric olmasını sürətləndirir.

D vitamini çatışmazlığında orqanizmin ümumi vəziyyəti dəyişir və birinci olaraq mineral maddələr mübadiləsi pozulur. Kalsium və fosforun mənimsənilməsi həddən çox azalır, bəzən heç tamamilə mənimsənilmir. Belə vəziyyət uşaqlarda raxit xəstəliyinə, yaşlılarda isə sümük toxumasının yumşalması ilə müşaiyət olunan osteomalyasiyaya səbəb olur.




İnsanın D vitamininə sutkalıq tələbatı orta hesabla 500 BV-dir ki, ona müvafiq miqdarda da orqanizmə kalsium və fosfor daxil olmalıdır. Bu vitamin həm də dəridə ultrabənövşəyi şüaların təsirindən əmələ gəlir. D vitamininin əsas mənbəyi müxtəlif növ balıq və digər dəniz heyvanlarının yağları (tərkibində 200-60000 BV qədər D vitamini vardır) hesab olunur. Süd, yumurta və s. qida məhsullarında miqdarı nisbətən azdır (0,2-10 BV). Qeyd etmək lazımdır ki, mənbəyindən asılı olmayaraq D vitamini orqanizmə güclü təsiredici maddədir. Belə ki, bəzən ətraflı müayinə aparılmadan D vitamininin yüksək dozada təyn olunması, bəzi valideyinlərin övladlarının tez yeriməsi, tez diş çıxarması üçün uzun müddət və yüksək dozada həmin vitamini verməsi uşaqlarda intoksikasiyaya səbəb olur. Belə hal çox vaxt D vitamininin balıq yağı və ultrabənövşəyi şüalanma ilə birlikdə qəbul olunması zamanı baş verir ki, bu da hipervitaminoz adlanır. Anadangəlmə qüsurları olan, həmçinin qidalanmasında A, E, B, C vitamini və zülal çatışmazlığı olan uşaqlar D vitamininin toksiki təsirinə qarşı daha həssas olurlar. D vitamininin bir qramı 280 uşağı bir il ərzində raxit xəstəliyindən qorumaq üçün kifayətdir. Orqanizmə D vitamininin həddən artıq daxil olması böyrək borucuqlarında və əzələlərdə kalsiumun çökməsinə, nəticədə böyrək çatışmazlığına, hipotoniyaya, damarlarda sklerozlaşma prosesinə və s. səbəb olur. Bu vitamin xarici mühit amillərinin təsirinə, yüksək temperatura nisbətən davamlıdır. Yalnız yüksək temperatur və oksigenin birgə təsiri onun qismən parçalanmasına səbəb olur. Bütün bunları nəzərə alaraq uşaqlara və yaşlılara müalicə və profilaktika məqsədilə D vitamini mənbəyi olan qida məhsulları və preparatları hərtərəfli ciddi tibbi müayinədən sonra təyin olunmalıdır.

***Ş.SƏMƏDOV, dosent***
***V.ƏLİYEV, baş müəllim***
*Ümumi gigiyena və ekologiya kafedrasının əməkdaşları*

# "Ölsəm bağışla" filmi nümayiş olunub

ATU-nun Tələbə Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən "Kino klubu"nun təşkilatçılığı ilə "Ölsəm bağışla" filminin nümayişi olub.

Qeyd edək ki, klubun təşəbbüsü ilə hər həftənin cümə günü "Kino günü" kimi təyin edilib.

Tələbələrimiz "Kino günü" çərçivəsində hər həftənin cümə günü saat 16:00-da Tədris Terapevtik Klinikada yerli və əcnəbi kinoları izləmək fürsəti əldə edəcəklər.



## Allah rəhmət eləsin!

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın professoru Elçin Xıdırova əmisi

**Əsgər Xıdırovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başağlığı verirlər.

Ailə təbabəti kafedrasının əməkdaşları kafedranın dosenti Nizami Kərimova anası

**Salatın xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başağlığı verirlər.

Hərbi Tibb Fakültəsinin əməkdaşları Tibbi profilaktika kafedrasının tədris laboratoriya rəisi Ramin Əfəndiyevə atası

**Zəkəriyyə Əfəndiyevin**

vəfatından kədərləndiklərini bildirir və ona dərin hüznlə başsağlığı verirlər.

## Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin II kurs, $118^{a-3a}$ qrup tələbəsi Məmmədzadə Qızxanım Elnur qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, $317^{a-18}$ qrup tələbəsi Məmmədova Xədicə İlqar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, $317^{a-18}$ qrup tələbəsi Ağazadə Fidan Vüqar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

İctimai səhiyyə fakültəsinin I kurs, $319^{r-1a}$ qrup tələbəsi Süleymanlı Nüşabə Türkel qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin IV kurs, $369^{a}$ qrup tələbəsi Məmmədova Ramilə Mühəmməd qızının adına verilmiş tələbə bileti və təqaüd kartı itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin VI kurs, $306^{a}$ qrup tələbəsi Miriyev Orxan Teyyub oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, $119^{a-6b}$ qrup tələbəsi Qaragözova Dilarə Səfa qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - 98c**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2200